***Hidayət Fərrux oğlu Cəfərov***
*Prof. (ADİU-UNEC)*
E-mail: hidayet-jafar@mail.ru

# AZƏRBAYCANIN QƏDİM DÖVR TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ ALMAN MƏNŞƏLİ TƏDQİQATÇILARIN ROLU

**Açar sözlər:** Azərbaycan, almanlar, arxeologiya, abidələr, artefaktlar

**Ключевые слова:** Азербайджан, немцы, археология, памятники, артефакты

**Key words:** Azerbaijan, germens, archeology, Monument, arthephants

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalına gətirib çıxaran iki Rus-İran müharibəsi (1804-1813; 1826-1828-ci illər), onların sonu olan iki müqavilə (Gülüstan və Türkmənçay) nəticəsində Cənubi Qafqazda dövlət quruculuğunda, ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahələrdə ciddi dəyişikliklərə yol açıldı. Şimali Azərbaycanı öz təsir dairəsinə qatmağa nail olmuş Çar Rusiyası burada imperiyanın mənafeyinə uyğun siyasət həyata keçirilməsinə start verdi. Bunların sırasında geniş miqyaslı köçürmə siyasəti xüsusi yer tutmuşdur [2]. Cənubi Qafqaza, ən çox da Azərbaycanın bütün tarixi ərazilərinə Rusiyanın mərkəzi quberniyalarından, həmçinin onun başqa regionlarından çoxsaylı əhali, ruslar, ukraynalılar, belaruslar, habelə müxtəlif istiqamətli sektant üzvləri – molokanlar, babtistlər, köhnə dinə inananlar və s. kütləvi surətdə köçürüldülər. Həmin əhali Azərbaycanın həm düzənlik (Muğan, Şirvan), həm də dağlıq və dağətəyi zonalarında məskunlaşdırıldılar [1].

Çar hökumətinin köçürmə siyasəti bununla məhdudlaşdırılmamışdır. Elə həmin dövrdə, xüsusilə 1816-1818-ci illərdən başlayaraq qarşılıqlı razılaşmaya uyğun olaraq Almaniyanın müxtəlif vilayətlərindən, xüsusilə Vürtenberqdən (Şvab almanları) Azərbaycanın ən münbit və səfalı regionlarına almanların köçürülməsinə başlanıldı. Almanlar Ilk əvvəl Gəncəyə yaxın olan, köhnədən azərbaycanlıların yaşadığı Xanaxlar (Xanahlar?) adlı yaşayış məntəqəsinin yerində yurd salmışlar. Məlum olur ki, almanların burada məskunlaşması ilkin vaxtlar yetərincə asan olmamışdır. Lakin alman dözümlülüyü, üstə gəl yerli azərbaycanlıların həm dini baxımdan, həm də tamamilə yerli əhali üçün milli baxımdan yad olan köçmə əhaliyə isti münasibəti, almanların adaptasiya olmalarına şərait yaratmışdır. Hərçəndki, ilkin vaxtlar yaşayış binalarının olmaması, yeraltı qazmalarda, heç bir şərait olmadan yaşayış, müxtəlif xəstəliklərin nəticəsi olaraq baş verən tələfatlar qaçılmaz olmuşdur. Amma almanlar bütün çətiliklərdən qurtularaq burada əsaslı kök sala bilmişlər. Onların yaratdığı ilk yşayış məntəqəsi elə qazmalarda yaşadıqları Xanaxların yerində, Rus imperatoru Pavelin qızı, Vürtenberq şahzadəsi Elena Pavlovnanın şərəfinə Elenendorf adlandırılmış qəsəbə olmuşdur. Daha sonralar almanların Azərbaycanın Gəncəçay, habelə Şəmkir, Tovuz və Qazax bölgələrində müxtəlif adlarda yeni yaçayış məntəqələri şalınmışdı. Zaman keçdikcə burada, Azərbaycanın münbit və səfalı guşələrində, almanların Elenendorf, Annenfeld, Qeorqfeld, Qrünfeld kimi, bütövlükdə səkkiz koloniya və ya yaşayış məntəqələri yarandı. Ən böyük koloniya 1819-cu ildə yaranmış Elenendorf koloniyası idi.

Ədalət naminə qeyd olunmalıdır ki, Azərbaycanda məskunlaşmış almanlar, çox qısa zaman kəsiyində yaşamaq üçün vacib olan bütün infrastrukturları yüksək səviyyədə yaratmaqla yanaşı, öz ənənəvi məşğuliyyət sahələrinin təşkili və inkişafını da alman səliqəsi və dəqiqliyi ilə sahmana saldılar. Azərbaycanda XIX əsr və XX əsrin birinci yarısında təsərrüfatın və sənətkarlığın, sənayenin bəzi sahələrinin təşkili və inkişafında almanların lazımi rolu olmuşdur.

İqtisadiyyatın üzümçülük və şərabçılıq, habelə sənətkarlığın müxtəlif sahələri, xüsusilə mis filizi istehsalında onların əməyi xüsusi qeyd olunmalıdır. Bütün bunlar haqqında Azərbaycan tarixçilərinin, başqa elm sahələrinin mütəxəssisləri tərəfindən ciddi elmi

araşdırmalar aparılmış və Azərbaycan ictimaiyyətinə təqdim edilmişdir. Ona görə də mən öz çalışdığım sahəyə uyğun olaraq alman mənşəli insanların Azərbaycanın qədim dövr abidələrinin öyrənilməsindəki fəaliyyətlərinə nəzər yetirməyi vacib sayıram.

Bunların sırasında Simensin Gədəbəy və Kalakənd mis mədənlərində kimyaçı mühəndis işləmiş Voldemar Belk və Şuşa Real məktəbinin alman dili müəllimi işləmiş Emil Resleri xüsusi qeyd etmək lazımdır. Məhz bu iki şəxsin müvafiq olaraq Xocalı və Gədəbəy-Qalakənddə apardığı arxeoloji qazıntıların verdiyi materiallar əsasında indi bütün dünyada məşhur olan "Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti" nin varlığı müəyyənləşdirilmişdir.

V.Belk öz peşəsi ilə yanaşı Gədəbəy və Qalakənddə 300-dən (üç yüz) artıq daş qutu qəbirləri açmış, qazıntıların nəticələrini alman məcmuələrində hesabat şəklində nəşr etdirmişdir. Lakin onu da qeyd etməliyik ki, O, bu materialları Azərbaycanda saxlamamış, Almaniyaya göndərmişdir. 1985-ci ildə həmin materiallar küllüyyat halında, elə Almaniyada nəşr olunmuşdur [3]. V.Belkin arxeoloji qazıntıları nə məqsədlə aparması müəyyən qədər sual dogursa da, bu işi kimin sifarişi və malliyyə dəstəyi ilə yerinə yetirməsi haqqında məlumat var. Beləki, hesabatlar və yazılı məlumatlardan bəlli olur ki, Qafqazın müxtəlif bölgələrində alman mənşəli şəxslərin arxeoloji qazıntılar aparmasında R.Virxovun məxsusi rolu olmuşdur. Bunu R.Virxov və V.Belk, habelə E.Resler və başqaları arasındakı vaxtaşırı yazışmalar da əyani sübut edir. Görünör elə V.Belkin Gədəbəy və Qalakənddə qazdığı daş qutu qəbirlərinin artefaktlarını mütəlif yollarla Almaniyaya göndarılməsi də, elə R.Virxovun birbaşa göstərişi və dəstəyi ilə həyata keçirilmişdir. Qeyd olunmalıdır ki, V.Belkin tarixçi-arxeoloq və ya qədim dövr üzrə mütəxəssis olmamasına baxmayaraq, onun qazıntılar və artefaktlar haqqında alman səliqəşi ilə hesabat və cizgiləri tərtib etməsi diqqəti çəkir. Xatırladaq ki, O, alman mənşəli olsa da, E.Resler və Y.Hümmeldən fərqli olaraq Azərbaycana köçmüş kolonistlərdən olmayıb. Onun necə qazıntılar aparması, araşdırmaları, elmi fikirlər söyləməməsi, Azərbaycan haqqındakı məlumatları qeyri-dədiq çatdırması isə ayrıca tədqiqat mğvzusu ola bilər.

Lakin deməliyik ki, V.Belkin Azərbaycandakı qazıntılardan əldə etdiyi materiallar əsasında sonralar çoxsaylı dissertasıya işləri yazılmış, monoqrafiyalar və məqalələr nəşr olunmuşdur. Bunların sırasında İ.H.Nərimanovun "Cəncəçay rayonunun arxeoloji abidələri" [17], C.Ə.Xəlilovun "Qərbi Azərbaycanın tunc və ilk dəmir dövrü abidələri" [18], T.Ə.Bünyatovun "Azərbaycanda tunc dövründə əkinçilik və maldarlıq" [19] və s. əsərləri misal göstərmək olar.

Öz arxeoloji tədqiqatlarına Şuşa və onun ətrafında başlayan, Şuşa Real məktəbində müəllim işləmiş Emil Aleksandroviç Resler (onun soy adı bəzi yazılarda – Rosler,Restler-kimi də getmişdir), XIX əsrin 90-cı illərində Azərbaycanın Şuşa, Xocalı, Dovşanl (Arçadzor), Axmaxı, Ballıqaya, Sırxavənd, Xaçınçay, Kətti təpə, Lısaqorsk, Abdal-Gülablı və s. abidələrində qazıntılar aparmış, Qalatəpə, Qaraköpəktəpə abidəlırinə baxış keçirmiş, e.ə. III-I minilliklərə aid çoxsaylı kurqan, daş qutu qəbri və s.abidələri aşkar etmişdir. Tapıntıların və qazıntıların nəticələri Rusiya İmperator Arxeoloji Komissiyasının illik hesabatlarında [4;5;6 və s.], Almaniyanın ZE VBGAE [7;8;9 və s.] məcmuəsində nəşr olunmuş, Arxeoloji Komissiyanın arxivlərinə təhvil verilmişdi. Onun materialları müasir dövrə qədər Rusiyanın Moskva Dövlət Tarix Muzeyi və Sankt-Peterburq Ermitajinda saxlanılır və nümayiş etdirilir. Yeri gəlmişkən, təvazökərlikdən bir qədər kənara çıxılsa da, bu məqalənin müəllifi hələ 1974-cü ildə, o zamankı Leninqrad (indi Sankt-Peterburq) şəhərinə elmi ezamiyyət gedişində Ermitajın direktoru, azərbaycan və azərbaycanlılara isti münasibət nümayiş etdirmiş, akademik Boris Borisoviç Piotrovski, mənim, təzəcə elmi fəaliyyətə başlayan adi aspirantın iradına yerindəcə reaksiya verərək, Qarabağın dağlıq hissəsindən E.Resler tərəfindən aşkar olunaraq St.Peterburqa göndərilmiş artefaktların Ermənistandan məlum olan materiallar kimi təqdim olunmasının

ləğv edilməsi və eksponatların həqiqi ünvanlarının özünə qaytarılması haqqında çox sərt tərzdə göstəriş verdi.1987-ci ildə, Leninqrad şəhərinə növbəti elmi ezamiyyət zamanı 1974-cü ilin söhbətini yadda saxlayan akad. B.B.Piotrovski çox böyük məmuniyyətlə Qafqaz bölməsində nümayiş etdirilən arxeoloji materialların ünvanının məhz Azərbaycanla bağlı olmasını sübut edən məlumatların sərgilənməsini göstərdi.

E.Reslerin xidmətləri sırasında onun Qarabağda çoxsaylı arxeoloji abidələr aşkar etməsi ilə yanaşı, həm də bu abidəlırin bir çoxunda arxeoloji qazıntılar aparması ayrıca vurğulanmalıdır. Xüsusilə, məşhur Xocalı kompleksində beş kurqan tipinin müəyyən edilməsi, olarin ilk vizual planının tərtib edilməsi, burada arxeoloji qazıntılar aparılması ayrıca deyd olunmalıdır. Təkcə onu qeyd etmək yetərlidir ki, Xocalı abidələri kompleksinin materialları sonralar Azərbaycanda tunc və ilk dəmir dövrünün bir çox problemlərinin araşdırılması üçün tutarlı mənbə rolunu oynamışdır. Ayrıca vurğulamağı vacib sayırıq ki, E.Recler, heç bəlkə özü də dərk etmədən, ilk dəfə olaraq, Azərbaycanın müxtəlif dövrlərə aid abidələri sırasında tunc dövrünün erkən mərhələsinin kurqanlarının varlığını aşkar etmişdir. Biz Azərbaycanın Dağlıq Qarabağ zonasının Xaçınçay hövzəsində qazıntılar aparılmış Xaçınçay kurqanlarını nəzərdə tuturuq. Yeri gəlmişkən deyək ki, sonralar XX əsrin 30-cu illərində bu məqalənin başqa səhifələrində haqqında bəhs edəcəyimiz digər bir alman mənşəili şəxs – Yakob Hümmel, qədim Azərbaycan kəndi olan Xankəndinin yaxılığında ilk tunc dovrünün digər, daha qiymətli kurqan abidələrini açıb öyrənmişdir.

Arxeoioji axtarış və qazıntılara 1891-ci ildən başlayan E Resler bilabasitə öz peşəsi, yəni müəllimliklə yanaşı, qalan asudə vaxtını, az qala hər qarışı müxtəlif tarixi dövrlərə aid olan Azərbaycanın Qarabağ zonasının arxeoloji abidələrini alman səliqəsi ilə qeydə almış və elə alman dəqiqliyi ilə də təsvir etmişdir.Qarabağın dağlıq hissəsində axtarışlar aparılması ilə kifayətlənməyən E.Resler, dağətəyi və düzən rayonlarına da səfərlər etmişdir. Məsələn, Ağdamın (o, buranın Şuşaya aid olduğunu vurğulayır) Abdal-Gülablı (Reslerdə-Güləfli) kəndləri ətrafındakı kurqanları, yerli əhalinin «Qaraçı qəbirləri» və ya «Govur qəbirləri» adlandırdıqları abidələri həm deydə almış, həm də burada müəyyən qədər arxeoloji qazıntılar aparmışdır.

Füzuli rayon mərkəzinin kənarında yerləşmiş Qaraköpəktəbə və Qarqarçayın sahilindəki Qalatəpə abidələrinə baxış keçirən E.Resler, burada arxeoloji qazıntılar aparsa da qazıntının özünün mahiyyətini dərk etməyərək, hər iki yaşayış yerini kurqan abidəsi hesab etmişdir. Doğrudur, E.Resler burada səhvə yol vermişdir. Lakin nəzərə almaq lazımdırki, E.Reslerin vaxtinda Azərbaycanda hər hansı bir dövrə aid məişət abidısinin varlığı, demək olar ki, ümumiyyətlə məlum deyildi.Ona görə də, E.Reslerin səhvlərini sadalayarkən bu və ya buna oxşar olanları yadda saxlamaq gərəkdir.

Yüksək dağlıq zonada, tarixi Azərbaycan torpaği olan Zəngəzurda, Dığ kəndi ətrafında, Kətti təpədə, Şuşa və onun ətrafınd, Mehtikənddə, Çanaxçıda, Zertidə, yuxarıda sadaladağımız və E.Reslerin, necə deyərlər, əsas qazıntı obyektləri olan Xocalı, Axmaxı, Ballıqaya, Sırxavənd, Dovşanlı (Arçadzor), Xaçınçay abidələrində [23] aparılan arxeoloji qazıntılardan əldə olunmuş artefaktlar, sonrakı vaxtlarda qədim tariximizin bir sıra aktual problemlərinin araşdırılmasında böyük rol oynamışdır. Biz fikrimizi təsdiq edən çoxsaylı faktları misal gətirə bilərik. Bunların sırasında indi Azərbaycan tədqiqatçılarının səyi və məqsədyönlü elmi fəaliyyəti sayəsində dünya elmində layiqincə işıqlandırılan Xocalı abidələri kompleksi xüsusi vurğulanmalıdır. Ədalət naminə göstərməliyik ki, Xocalı abidələri kompleksində ümumi oxşarlığa baxmayaraq xarici görnüşündə müşahidə olunan bir sıra detallarla yanaşı, daha başlıca olan xronolji sıralamada əsaslı fərqlərə malik beş kurqan tipinin varlığı, mən də daxil olmaqla hamımızın, arxeologiyada diletant adlandirdığımız E.Resler tərəfindən müəyyən edılmişdir. Bu bölgüyə 1926-cı ilin yoxlama və qazıntıları əsasında A.A.İessen, 1984-cü ılin araşdırmalarına əsasən H.F.Cəfərov müəyyən, kosmetiq xarakterli korreksiyalar

versələr də, E.Reslerin baza xarakterli bölgüsü əsas götürülmüşdür.

E.Reslerin Xocalı, Ballıqaya, Axmaxı, habelə, Gəncəçay hövzəsindəki arxeoloji qazıntılarının nəticələrinə istinad edən alimlərimiz, tunc dövrünün son mərhələsində Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni dini-ideoloji ınkişafı, yaxın qonşular və qədim Şərqin məsafəcə uzaq mədəniyyət mərkəzləri arasında hərtərəfli əlaqələrin varlığını sübut edən çoxsaylı faktları üzə çıxarmış, dünya sivilizasiyasının formalaşmasında azərbaycanlıların layiqli töhvələr verməlırini sübut etmişlər.

Xatırladaq ki, 1899-cu ildən iş yerini Gəncə şəhərinə dəyişən E.Resler burada da tunc dövrü abidələrində arxeoloji tədqiqatları davam etdirmiş, tariximiz üçün qiymətli mənbələr əldə etmişdir [10]. O, burada, Elenendorf ətrafında, geniş Gəncə düzənliyində, hətta buradan bir qədər kənarda yerləşmiş Nuxa (Şəki) qəzasının Böyük Dəhnə kəndi ətrafında da arxeoloji qazıntılar aparmışdır.

Biz E.Resleri peşəkar yox, həvəskar-diletant arxeoloq kimi qəbul edirik və bu doğrudan da belədir. Çünki o, nə qədər səliqəli, vicdanlı işləməsi, hər gördüyünü olduğu kimi təsvir etməsi, arxeoloji abidə və materialların foto və qrafik şəkillərini çəkməsi, ətraflı hesabatlar tərtib edərək Arxeoloji Komissiyaya göndərməsi və s. yanaşı, arxeoloji abidələri primitiv üsullarla, ortadan ensiz xəndək çalası qazmaqla aparmış, kurqanların sahəsini bütövlükdə açmamış, beləliklə işi yarımçıq qoymuşdur. Ona görə də, kurqan və qəbirlərin daxili quruluşu, konstruksiyası, dəfn adəti və dəfn mərasimi, artefaktların tam say təkibi və s. bu kimi vacib faktorların açılışı yarımçıq xarakterli olmuşdur. E.Reslerə heç də haqq qazandırmaq naminə yox, həqiqəti olduğu kimi çatddırmaq baxımından xatırlatmağı lazım bilirik ki, əslində E.Reslerdən əvvəl də, onyn vaxtında da, çox halda əksər arxeoloqlar elə hamin üsulu tətbiq etməklə qazıntılar aparmışlar. Çünki, əsil peşəkar arxeoloqlar çatışmırdı. Azərbaycan da bu sıradan istisna deyildi. Hətta bizim haqlı olaraq diletant hesab etdiyimiz E.Rtslerə bir çox başqalarının arxeoloji qazıntılarına nəzarət edərək, onlara rəy verməsi həvalə olunmuşdur. Məsələn, E.Resler 1899-cu ildə İmperator Arxeoloji Komissiyasının tapşırığına əsasən, Gəncəöçay rayonunda arxeoloji qzıntılar aparmaq üçün icazə vərəqəsi istəmiş D.Q.Şultsun qazıntılarını təftiş edərək, axırıncıya yarıtmaz işinə görə mənfı rəy vermişdir. Bunun əsasında D.Q.Şultsa arxeoloji qazıntılar aparmasına icazə verilməmişdir.

Yuxarıda adlarını sadaladığımız həmin şəxslərlə yanaşı Gəncəçay regionunda XX əsrin əvvəllərində arxeoloji qazıntılar aparmış Q.O.Rozendorf (bəzi yazılarda Rozerdorf) (1903-cü il), R.A.Skinder (1905-1907-ci illər) və başqalarının da fəaliyyəti qeyd olunmalıdır. Axırıncaların qazıntıları da Gəncəçay hövzəsini əhatə etsə də davamlı olmamış, epizodiq xarakter daşımışdır.

Lakin bütün bunların fonunda daha bir alman əsilli tədqiqatçının xidmətləri xüsusi qeyd olunmalıdır. Bu, Elenendorf sakini olmuş Yakov Hümmeldir. Yakov (bəzən Ykob kimi yazılır) İvanoviç Hümmel (1893-1946) 1893-cü ildə almanların Azərbaycanda ilk məskunlaşdığı koloniya olan Elenendorfda dünyaya gəlmişdir. Almanların Cənubi Qafqaza, xüsusilə Azərbaycana köçməsi ilə bağlı çoxsaylı mənbələr, araşdırmalar, monoqrafik əsələr və məqalələr mövcuddur. Məqalənin məramı başqa xarakterli olduğu üçün onları burada sadalamağı lüzumsuz sayırıq. Təkcə onu xatırladırıq ki, Azərbaycana Almaniyanın Vürtenberq vilayətindən köç etmiş Şvab almanları xeyli axtarışlardan sonra Gəncəçay rayonunun bir çox baxımdan onların doğma torpaqlarını xatırlamasının şahidi olmuş, bu səbəbdən də məskunlaşma uçün buranın əlverişli olması qərarını vermişlər. İlk olaraq almanlar bir vaxtlar azərbaycanlıların yaşayış məskəni olan Xanahlar (Xanaxlar) adlı yerdə müvəqqəti xarakterli sığınacaqlar və yeraltı qazmalarda yaşamış, tədricən yerli şəraitə uyğunlaşaraq mökəm özüllü, yaraşıqlı, yaşayış üçün bütün lazımı infrastrukturları özündə ehtiva edən binaları inşaa etmişlər. 1819-cu ildən istifadəyə verilmiş ilk alman koloniyasına Rusiya imperatoru I Pavelin qızı, Vürtenbeq Şahzadəsi Elenanın şərəfinə Elenendorf adı verilmişdir. Sovetlər dönəmində qə-

səbə Xanlar (1907-ci ildə öldürülmüş ınqilabçı Xanlar Səfərəliyevin şərəfinə adlandırılmışdır. İndi isə Göygöl adı ilə gedir). Vaxtilə almanların yaratdığı bu binalar indiyə qədər də təyinatı üzrə istifadə olunur.Şəxsi mülkləri, üzüm plantasiyaları və şərab emalı müəssisələrinə malik varlı ailəyə mənsub olan Hümmel ailəsi 1880-cı ildə Elenendorf şərab anbarı, Gəncədə isə «Konkordiya» adlı şərab zavodunu, 1895-ci ildə ilk konyak zavodunu istifadəyə vermişlər. Hümmel qardaşlarının 1900-cu ildə açdıqları «Hümmel qardaşlarının Ticarət evi» bir çox xarici ölkələrlə ticarət əlaqələri yarada bilmişdir. Y.İ.Hümmel 1910-1914-cü illərdə Tiflisdə, Aleksandrovski Müəllimlər institutunda təhsil almış, oranı bitirdikdən sonra 1915-ci ildən, əvvəl Vladiqafqazda, 1921-ci ildən isə doğulduğu Elenendorfda müəllimlik etmişdir [24, c.12].

Y.Hümmel, uzun müddət Elenendorf – Xanlar orta məktəbində biologiya müəllimi çalışmaqla yanaşı, həm Elenendorf-Xanlar ətrafında, həm də Seyfəli, Quşçu, Gəncəçay hövzəsində və s. yerlərdə sistemli arxeoloji tədqiqatlar aparmışdır [11]. 1927-ci ildə Elenendorf ölkəşünaslıq muzeyini yaratmişdir. Muzeyin eksponatları sonralar Azərbaycan dövlət Tarix Muzeyinin və Gəncə ölkəşünaslıq muzeyinin təşkilində istifadə olunmuşdur. Onun 1[12] və 2[13] saylı Xanlar kurqanlarında əldə etdiyi yeniliklər Azərbaycanın son tunc dövrünün sosial-iqtisadi, ictimai-siyasi, ideoloji, etnik-mədəni proseslərinə, ibtidai dini görüşlərinə işıq salınmasında böyük rol oynamışdır. O, öz təşşəbbüsü ilə topladığı, arxeoloji gazıntılardan əldə etdiyi artefaktları mühafizə etmək, həm də tarix sevərlərə nümayiş etdirmək üçün Elenendorf (Xanlar) Ölkəşünaslıq muzeyini yaratmışdır.

Y.Hümmelin Azərbaycanın Dağlıq Qarabağ zonasında, ilk tunc dövrünə aid Xankəndi kurqanlarında [14] və Xocalı abidələri kompleksində [15], habelə Kərkicahan kəndi yaxınlığındakı [15] arxeoloji tədqiqatları Azərbaycanın qədim abidələrinin dövrləşməsi, dəfn adətləri, artefaktların tərkibi, istiqamətləri, mənşəyi kimi problemlərin həllində davamlı dəstək olmuşdur. O, başqa peşəkar alimləri on illərlə qabaqlayaraq bir sıra abidələrin xronologiyasını düzgün müəyyən edə bilmişdir. Xüsusilə, erkən tunc dövrünə aid Kür-Araz arxeoloji mədəniyyəti dövrünün xronologiyasını uzaqgörənliklə dəqiqləşdirmişdir [14]. Y.Hümmel, həmçinin arxeobotanikaya [16] xüsusi diqqət ayırmış, endem ağac növlərinin, bitkilərin və s. mənşəyi məsələsinə də toxunmuşdur.

Bu baxımdan onun Xankəndi yaxınlığında aşkar etdiyi və arxeoloji qazıntılar apardığı 103, 119 və 125 saylı ilk tuc dövrü kurqanları böyük elmi əhəmiyyətə malikdir. O, burada kollektiv dəfnetmə, suvaqla bağlama, giriş yolu, dairəvi planlı kamera və s. kimi yeniliklər aşkar etmişdir. XX əsrin 60-80-ci illərində Azərbaycanın Qəbələ [20, s.42-46], Şəmkir [21, c.9-10], Şəki [22] və s. bölgələrində bu tip qəbir abidələrinin tədqiqi Y.Hümmelin elmdə doğru yol tutmasını göstərdi. Maraqlıdır ki, Y.Hümmel 1941-ci ildə başqa kolonistlərlə birlikdə uzaq Qazaxıstana sürgünə göndərildikdən sonra da öz elmi yaradıcılığını davam etdirmişdir. Əlyazmalarını yenidən saf-çürük edərək o, məqalələri qaydaya salmış, nəşr olunmaq üçün müxtəlif elmi məcmuələrə, jurnallara göndərmişdir. Bu məgalələr heç bir düzəliş edilmədən, olduğu kimi çap olunmuşdur [13;14]. Onun 1941-ci ildə, görünür, Hitler Almaniyasının SSRİ üzərinə hücumuna qədər Xanlar yaxınlığlnda apardığı arxeoloji qazıntılara həsr olunmuş məqaləsi isə 1992-ci ildə akademik Boris Borisoviç Piotrovski tərəfindən nəşrə təqdim olunmuş və işıq üzü görmüşdür [24]. Bir faktı da xatırlatmağı lazm bilirik: akad. B.Piotrovski Y.Hümmmelin məqaləsinin əlyazması üzərində özü xəstəxanada müalicə alarkən işləmişdir. O, məqaləni nəşrə göndərəndən bir neçə gün sonra dünyasını dəyişmişdir [24, c.15]. B.Piotrovskinin göstərdiyi kimi, gec çap olunmuş bu məqalədə qeyd olunan dəlillər Azərbaycanın qədim tarixinin bir çox qaranlıq səhifələrinin işıqlandırılmasında müstəsna rol oynamağa qadir olan faktlardır. Buraya abidələrin xronoloji sıralanmasına tutarlı faklar verən «Mittaniya tipli» silindrik möhür, müxtəlif tip keramika nümunələri, qədim Azərbaycanda qoşqulu arabanın istifadəsini sübut edən «in situ» tapıntı və s. kimi yeniliklər daxildir. Bu sətirlərin müəllifi 1971-1974-cü illərdə aspirant olarkən nami-

zədlik dissertasiyası uzərində çalışarkən silindrik möhürlərə xüsusi paragraf ayırmışdır. O zaman Azərbaycanın hər hansı guşəsindən məlum olan, hətta kiçicik fakt işin yazılmasını asnlaşdırardı, o cümlədən silindrik möür nümunələri də. Sözümüzün canı budur ki, əgər Y.Hümmmelin bu tapıntısı vaxtında nəşr olunsa idi, faktalrımız çoxalar, daha geniş məlumat bazasına malik olardıq. Elə bununla əlaqədar xatırladaq ki, bu tip silindrik möhürlərin iki ədədinin məşhur Mingəçevir qazıntıları zamanı son tunc dövrü abidələrindən birində tapılması və uzun müddət kiminsə kolleksiyasında qalmasından sonra üzə çıxmasi məlum olmuşdur.

Y.Hümmel Qazaxıstana məcburi köçürüldükdən sonra bir müddət Akmolin vilayətində yaşamış, 1942-ci ildən Novo Koltun kəndindəki natamam orta məktəbdə müəllim işləmişdir. O, 1945-ci ildə, elə orada dünyasını dəyişmişdir [24, c.12]. Heç şübhə etmirəmki qədir bilən Azərbaycan arxeoloqları, qədim dövrlə məşğul olan elm adamları, Azərbaycan tarixinin yorulmaz zəhmətkeşi olmuş Y.Hümmel və onun kimi başqalarının da xatirəsini həmişə uca tutacaqlar.

Biz başqa alman əsill arxeoloqlarla müqayisədə Y.Hümmelin qazıntıları və ya yazılarına üstünlük verərkən heç də onu ideallaşdırmaq fikrində deyilik. Onun bütün müsbət işləri ilə yanaşı mübahisə doğuran bəsit və yanlış fikirləri də az olmayıb. Məsələn, heç bir elmi dəlilə söykənməyən və daha çox Y.Hümmelin fantaziyasına əsaslanan, bir kurqan altında dəfn etmədə xəyali tətbiqlə bağlı «Şüa» mülahizəsi bu qəbildəndir. Lakin, bir daha vurğulamağı vacib sayırıg ki, aparılmış arxeoloji qazıntıların nəticələrinin hesabatını tərtib edən, təsvir xarakterli qısa məzmununu nəşr etdirən, abidələrin dövrü və mənsubiyyəti haqqında məlumat verməyən digər arxeoloqlardan, məsələn, E.Reslerdən fərqli olaraq Y.Hümmel apardığı qazıntılara da, abidələrin dövrü, mənsubiyyıti, xarakterik əlamətləri və bir çox vacib şərtlərə də bir mənalı olaraq əməl etmişdir. Məlum olur ki, o, həm də bacarıqlı fotoqraf və cizkiçi olmuşdur. Bu bacarığın varlığı da arxeologiyada yüksək qiymətləndirilir.

Əslində tam peşəkar alim olmayan, fərqli peşə sahibləri olan, müxtəlif səbəblərdən - ya sənətinə görə işləyərək Azərbaycanda olması, yada talehin gərdişindən, - Azərbaycana köçərək buranı özlərinə ikinci vətən seçmiş bu almanlar, öz təşəbbüsləri, işdən kənar vaxtlarını sərf edərək onlara yad olan, lakin ərazisində məskunlaşmış xalqın qədim tarixini öyrənmək üçün töhfələrini vermişlər. Əlbəttə, elmin indiki inkişafı baxımından həmin şəxslərin arxeoloji qazıntı üsulları da, fikir və mülahizələri də, tarixi gerçəkliyi dərk etməsi də çox bəsit təsir bağışlayır. Lakin biz dövr, zaman, şərait, elmin inkişafı və s. kimi faktorları nəzərə alsaq həmin insanların əməyinə hörmətlə yanaşmalıyıq. Bəziləri yersiz və dar hisslərə qapılaraq, dövrün ictimai-siyasi və çar hakimiyyəti dövrünün inzibati-ərazi bölgüsündən doğan reallığı nəzərə almadan həmin almanları, xüsusilə, V.Belk və ya E.Resleri qeyri-peşəkarlarıqda, öz hesabatlarında “Azərbaycan” ifadəsinni işlətməməkdə günahlandırırlar. Lakin, oda məlumdur ki, 1918-ci ilə qədər, daha doğrusu, Azərbaycan Xalq Cumhuriyyəti qurulana kimi, ərazimizdə yalnız Rusiya imperiyasına tabe olan Quberniyalar mğcud idi.Odur ki, həmin dövr olaylarını süzgəcdən keçirərkən bu faktor da nəzərə alımalıdır. Digər tərəfdən, diqqətli oxucu Y.Hümmelin əlyazmalarında, nəşr olunmuş əsərlərində mütamadi olaraq Azərbaycan ərazisindəki arxeoloji abidələrdən danışılır və onların Azərbaycana məxsusluğu birmənalı vurğulanır. Təqdim etdiyimiz məqalədə Y.Hümmelin yazdığı əsərlərlə bağlı sadaladığımız ədəbiyyat siyahısı da dediyimizi bir daha təsdiq edir.

## ƏDƏBİYYAT

1. Muradov Murad. Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti (XIX əsrin I yarısında). Bakı, 1999.
2. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX - начале XX века). Баку, 1999.
3. Nagel Vofvram, Strommenger Eva. Kalakent. Früheisenzeitliche Grabfunde aus dem transkaukasischen Gebiet von Kirovabad / Jelisavetpol. Berlin, Wissenschaftsverlag Volker Spiess, 1985.
4. ОАК за 1894г. СПб, 1896.

5. ОАК за 1895 г. СПб, 1897.
6. ОАК за 1896г. СПб, 1898.
7. ZE VBGAEU, Berlin, 1894.
8. ZE VBGAEU, Berlin, 1895.
9. ZE VBGAEU, Berlin, 1896.
10. Спицын А.А. Археологические исследования Э.Реслера в Елизаветпольской губернии в 1901 г. ИАК, Москва, 1904, вып.12.
11. Гуммель Я.И. Археологическое очерки. Баку, 1940.
12. Гуммель Я.И. Погребальный курган №1 около Елененсдорфа в Азербайджанской ССР. Баку, 1931.
13. Гуммель Я.И. Курган №2 близ Ханлара. КСИИМК, Москва, 1949, вып. XXVI.
14. Гуммель Я.И. Некоторые памятники раннебронзовой эпохи Азербайджана. КСИИМК, Москва, 1948, вып. XX.
15. Гуммель Я.И. Археологические раскопки в районах Азербайджанской ССР. Изв. АзФАН СССР, 1939, № 3.
16. Гуммель Я.И. К проблеме археоботаники Закавказья. Сообщ. Груз ФАН СССР, 1940, т.1, №8-10.
17. Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, Azərb.SSR EA nəşriyyatı,1958.
18. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc və ilk dəmir dövrü abidələri. Bakı, Azərb. SSR EA nəşriyyatı,1959.
19. Бунятов Т.А. Земледелие и скотоводство в Азербайджанав эпоху бронзы. Баку, Изд-во АН Азерб.ССР, 1957.
20. Qazıyev S.M. Qəbələ kurqanları və ölüləri yandırma (kremasiya) adəti. Azərb. SSR EA xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1969 № 3.
21. Джафаров Г.Ф., Кесаманлы Г.П., Нариманов И.Г. Археологические раскопки в зоне строительства плотины Шамхорской ГЭС. АЭИА(1978г.), Баку, «Элм», 1982.
22. АхундовТ.И. Северо-западный Азербайджанв эпоху энеолита и бронзы. Баку, «Элм», 2001.
23. E.Reslerin hesabatlarının əlyazmaları SSRİ dağılana qədər: Дело АК. Архив ЛОИА, ф.1, №130/1891; №54/1894; №60/1895; №36/1896; №48/1897; №64/1898 getmişdir. Hazırda, keçmiş SSRİ EA Arxeologiya İnstitutunun Leninqrad filialına müstəqillik ststusunun verilməsilə Sankt-Peterburq Maddi-Mədəniyyət İnstitutu adlandırılmışdır.Buna müvafiq olaraq arxivin də indeksi təzələnərək belə adlanmışdır: РО НА ИИМК РАН, ф.1 və
24.Я.И.Гуммель. Раскопки к юго-западу от Ханлара в 1941 г. ДИ, 1992, №4 (B.B. Piotrovskinin məqaləyə əlavəsi).

***Гидаят Фаррух оглы Джафаров***

## РОЛЬ НЕМЕЦКИХ УЧЕНЫХ В ИЗУЧЕНИИ ДРЕВНЕЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

### *РЕЗЮМЕ*

В статье освещается роль немецких исследователей в изучении древней истории Азербайджана на базе археологических материалов, добытых при раскопках археологических памятников в Нагорном Карабахе, в Кедабеке, в Калакенде, Елененсдорфе, в Шамкире и в Гянджачайском районе. Эти материалы в дальнейшем служили источниками для освещения различных аспектов древней истории Азербайджана.

***Hidayet Farrukh oglu Jafarov***

## THE ROLE OF GERMAN SCIENTISTS IN STUDYING OF ANCIENT HISTORY OF AZERBAIJAN

### *SUMMARY*

The role of investigators in studying the ancient history of Azerbaijan on the basis of archeological materials, mined during the excavation of archeological monuments in Nagorny Karabackh, Gadabay, Qalakend, Elenendorf, Shamkir and in Ganjachay regions have been revealed in the article. These materials in future will serve to the source for enlightenment of various aspects of ancient history of Azerbaijan.